# AÇILMAYAN SİRR

## (hekayə)



**Baba BABAYEV**

*(Əvvəli ötən sayımızda)*

Axşam yola düşəcək Bakı-Tiflis qatarının vaxtını öyrəndi. Neçə saat vaxtı qalırdı. Bir tərəfə çəkilib Kiyevdən aldığı çörək-kolbasadan zorla da olsa bir loxma yedi. Hospitaldan çamadanına konserv də qoymuşdular. Sadəcə onu açıb yeməyə nə həvəsi, nə də iştahası vardı. Dan yeri qızarmamış havanın qaranlıq, göz-gözü görmədiyi bir vaxtda qatar səs-küy salaraq fısıldayıb-fısıldayıb dayandı. Qatardan düşənlər bir palturka maşınına doluşub, kələ-kötür yolla günün birinci yarısı keçmiş qəsəbə adlanan, mərkəzə oxşamasa da mərkəz adlanan yerə çatdılar. Sürücü Mahudun ordenlərinə baxıb: "Səndən pul götürməyəcəyəm", - dedi. Mahudsa, yox, qardaş, buyur pulunu al, - dedi.

Sürücü: "Ay igid, hansı kənddənsən, kimlərdənsən" sualını verib əsgərin üzünə baxdı.

Mahud kəndlərini, böyük qardaşının adını deyən kimi sürücü onu qucaqlayıb öpdü. Mən qardaşınla 39-cu ildə sürücülük məktəbini qurtarmışam, - dedi. Sürücü nə qədər etdisə, əsgəri dilə tutub razılığa gətirə bilmədi ki, kəndlərinə aparsın.

O, piyada Kür boyu kəndlərdən keçib təpənin üstünə çıxanda dayanıb nəfəsini aldı. Boynunun, alnının tərini sildi. Qarşıda böyük tala görünürdü. Qıtlıq olduğundan – mal-qara olmadığı üçün oktyabrın bu vaxtında ot dizə çatırdı.

Əsgər kiçik, taxta çamadanını götürüb talanın ortasıyla kəndlərinə gedən cığırla irəlilədi. Ürəyi təlaş içindəydi, otluğun sıxlığı yerişinə maneəçilik törədirdi. Elə bil kənddən bu rayon mərkəzinə ayda bir dəfə də olsun gedib-gələn olmur. Sonra fikirləşdi ki, poçtalyon, bir gözü kor Ələvsətdən başqa, bu yolu kim gedib-gələcək ki.

Kəndə səs yayıldı ki, Mahud sağdır, müharibədən qayıdıb.

Bütün kənd onların həyətinə yığışmışdı. "Heç MK katibi Mircəfər Bağırov bu kəndə gələndə bu qədər insan toplanmır" – kənd ağsaqqallarından biri dedi.

Qardaşları müharibədən qayıtmış, bəyliklərdən olan anası gözəlliyini və təravətini itirməmişdi. Bircə, Reyhan gözə dəymirdi.

Ailə, qohum-əqrəba sevincək olmuşdu. Belə bir məqamda gözləri yol çəkən əsgərdən başqa Reyhan heç kəsin yadına düşmürdü. Mahud həyətlərinin qarşı tərəfindəki meyvə bağını gəzməyə getdi.

Kimsə dilləndi: "Ay İntizar xanım, oğlunuz ən yüksək ordenlər alıb. O kəndimizə qəhrəman kimi qayıdıb" – bunu başqa müharibə iştirakçısı olan Abbas müəllim dedi. Abbas müəllim ev sahiblərinə: "biriniz ona yaxınlaşın, Reyhanla olan əhvalatı danışın", – dedi.

Həyətdə böyük şadyanalıq vardı. Hərbçi qardaşlar əldən-ayaqdan gedir, analarının qurban götürdüyü qızılı rəngli erkək dananı kəsmiş, plov dəmləmişdilər. Qardaşlar ortalığa – çay içmək üçün qənd əvəzinə həyətdəki arı təhnələrindən süfrəyə bal düzmüşdülər. Qonşu qadınların dörd nəfəri yuxa yayırdı. Anası Mahud gedən səmtə addımladı. Yenə boynunu qucaqlayıb, illərin həsrətlisi, yenidən dünyaya gələn kimi oğlunu çoxlu-çoxlu öpdü.

Mahudun qardaşları şah tut ağacının altında xalça-palaz üstündə dövrə vurub oturan kənd camaatına qulluq göstərsələr də, gözləri anaları ilə Mahudda idi. Kiçik qardaş: "Ay ana, qonaqlar sizi gözləyir" – deyə dilləndi. Bir az keçmiş onlar da süfrəyə gəldilər. Mahudun sifəti açılmışdı. Anası ilə yan-yana süfrənin baş tərəfində oturdular.

Axşam şər düşənə qədər Mahudgilə gəlib-gedənin ardı-arası kəsilmədi.

Gecə ay doğmuşdu. Elə bil onların qapısı projektorla, limunist lampa ilə işıqlandırılmışdı.

Ailə üzvləri hələ də danışır, nəyisə götür-qoy edirdilər. Anası bağçada Mahuda bildirib ki, Reyhanda heç bir günah olmadı. Sənin itgin kağızından sonra kiməsə ərə getməyə ağsaqqal əmilərinlə mən onu təhrik etdik. Altı il namusla yolunu gözlədi. Dul əsgər qadınının adına söz çıxa bilərdi. Kəndin o biri başında olan, poçtda işləyən Əmrulla ilə üç aydır ki, evləniblər.

- Ay Mahud, ay oğul, indi onların da evlərində yasdır. Böyük bədbəxtçilikdir. Allah düşmənimə də belə işi göstərməsin. Amma hökm də, qərar da sənindir. Sən nə desən, anan onu edəcək.

Mahud bir az fikirləşib dedi: "Sənə qurban olum, ay ana, qoy səbər açılsın, dəqiq fikrimi qardaşlarıma deyərəm".

Anası səhər yeməyindən sonra Mahuda təskinlik olsun deyə, qonşu kənddəki əhvalatı danışdı.

-Bala, qonşu kənddəki İbrahimin evindəki yas bizimkinin yanında toyabayrama getməlidir.

-Nə olub, ay ana? İbrahim müharibədən qayıtmayıb, yoxsa iki qıçını da itirib?

-Yox. İbrahimin də qara kağızı gəlmişdi. Bir neçə aydan sonra İbrahimin on beş gün evləndiyi gəlini yad ələ düşməsin deyə, kiçik qardaşla kəbin etdilər. İki uşaqları da oldu.

Sən demə, İbrahim müharibədə əsir düşür. Əsirlikdən qaçıb keçir özümüzünkülər tərəfə. Allah Stalinin tifağını dağıtsın, başqaları kimi minlərlə beləlirini Sibirə sürgün etdirdi. Zavallı bədbəxt Sibirdə az qalır, günahsız olduğu sübuta yetirildikdən sonra azadlığa buraxılır.

Deyirlər, qeyri-adi dərəcədə dəyişilibmiş. Kəndlərinin girəcəyində topal Nəminin həyətinə girib, içməyə su istəyib, hal-əhval tutub, müharibədə qalan İbrahimin ata-anasını, Fərqanəni soruşub. Nəminin arvadı bu yad adama deyir ki, ay kişi, heyif İbrahimdən, getdi, gəlmədi. Fərqanəni İbrahimin kiçik qardaşı ilə evləndirdilər, iki uşaqları da olub. Tanınmaz hala düşən, müharibənin və Sibirin əzablarını çəkən, vaxtından əvvəl saç-saqqalı ağaran həmin adam sən demə, İbrahim imiş. Necə peyda olubsa, eləcə də yoxa çıxıb. Bir inni-cinni onu görməyib. Öldüsündən-qaldısından hələ də xəbər yoxdu.

Mahud yavaşca, səsi güclə eşidiləcək bir səslə: "Ana, müharibə milyonlarla insanın qanını töküb, evlər yıxıb, şəhərləri, kəndləri xarabazarlığa döndərib. Minlər, on minlər dənizdə boğulub, döyüşlərdə tankların altında qalıb, top, pulemyot insanları zəmi kimi biçib. Təyyarə güllə-baranı altında qırılanlar düzənliklərdə, qoyun sürüsü kimi yan-yana düzülüb. Müharibənin yaraları çox dərindir. Günahkarlardan biri bəllidir, Hitlerdir, dünyanı qana çalxalayan, milyonları qıran, evsiz-eşiksiz, ac, zəlil qoyan Hitlerdir, parabeyin, psix, dünyaya ağalıq etmək istəyən Hitler. Milyonlarla yəhudini güllələdən, qazda yandıran, dar ağacına çəkən, yer üzündən bu milləti yox etmək istəyən Hitlerdir, Hitler. Bunlar danışmaqla qurtaran dərdlər deyildir. Dünyanı qan çanağına döndərdi. Yer üstündə nələr olmadı, müharibə nələr törətmədi? Ana, indisə, Reyhanla söhbətə, ağzını aramağa kəndin ağbirçək qadınlarından birini göndər. Reyhana desin ki, yığışıb evinə gəlsin. Onu qəbul edirəm.

-Ay oğul, bacılığım qonşu Nisə xalanı bu saat çağırtdırıb göndərərəm.

Mahudun sağ qalmasını eşidib-bilənlər iki-bir, üç-bir arvadlı-kişili onlara gəlməkdə idilər.

Anası Nisə arvadı başa salıb Reyhanın ardınca Əmrullanın evinə göndərdi.

Nisə arvad həyətə girəndə Reyhanla Əmrulla həyətə kölgə salan iri qarağacın altında oturmuşdular. Qonşuluqdakı Çərkəz və Məryəm arvad da burada idilər.

Nisə arvad ora çatanda dayanıb nəfəsini dərdi, baş dəsmalının ucu ilə tərini silib heç bir təklif gözləmədən kətilin üstündə oturdu.

Reyhan ağlayırdı, qadının gəldiyini görüb göz yaşlarını sel kimi tökməyə başladı.

Nisə arvad xeyirdən-şərdən bir kəlmə də olsa ağzını açmamış qonşular səssiz-səmirsiz durub getdilər. Ani olaraq araya can üzücü bir sükut çökdü. Handan-hana Nisə qarı dilləndi:

-Əmrulla, məni Mahudun anası göndərib. Mahud Reyhanın evinə dönməsini istəyir. Hər nə olub, bağışlayır.

Reyhanın göz yaşları dayanmır, Əmrullasa susurdu. Handan-hana Əmrulla: "Nisə xala, dünəndən Reyhana sözümü demişəm ki, əgər Mahud tələb etsə, qayıt evinə . İndi söz onundur, mən daha heç nə deyə bilmərəm", - deyib ayağa qalxdı.

Reyhan: "Üzüm ayağının altına, ay Nisə bacı, bilirsən, mən iki aylıq hamiləyəm, Mahud məni qəbul edəcəkmi?", – deyib yenə gözünün qarasını axıtmağa başladı və bir də dilləndi ki, Mahudun gəlmə xəbəri çıxan kimi Əmrulla mənə dedi: "Reyqayıt, ziyanlığın yarısından. Allahın yazısını heç bir bəndə poza bilməz. Qismət beləymiş. Qan davası lazım deyil".

Nisə arvad eşitdiyini, Reyhanın, Əmrullanın danışıqlarını ailəyə çatdırdı. Anası və qardaşları dinməzcə durmuş, son sözü deyəcək adamın cavabını gözləyirdilər. Xeyli sükut oldu. Təbii ki, qərar çıxarmaq çətin yox, müşkül məsələ idi. Qəfildən Məhud iniltili, can üzücü bir səslə: "Qəbul edirəm!" – dedi.

Heç kəs dinib-danışmırdı. Anası üzünü Nisə qarıya tutub: "Bacı, əziyyətdən keçib, bir də qayıt, Reyhana de ki, hazırlaşsın, gecədən keçmiş qardaşların biri gedib onu gətirəcək".

Gəlin gəlməsi münasibətilə elə öz keçmiş evinə – altı il əvvəl yaşadıqları evə əl gəzdirilib səliqə-səhmana salındı.

O axşam Mahudla Reyhan gecədən keçənə qədər Reyhan ərinin əlindən tutub onu necə istədiyini, hər gün, hər saat anası ilə onun barəsində söhbət açdığını danışdı. Bu işə onu anası və qoca əmilərinin təkid etdiyini israrla dönə-dönə vurğuladı. İndisə Allahından razıydı. Mahuda qovuşmuşdu. Reyhan dərdini danışdıqca göz yaşlarını da saxlaya bilmirdi.

Mahud da müharibədə odun-alovun içərisində nə müsibətlər çəkdiyini, hətta Truskoveskdə Tanya adlı bir lvovlu qızın onu necə sevməsini, yaralı vaxtı əməliyyat olunarkən necə əzab çəkməsi, göz yaşları axıtdığını, anasının və atasının xəstəxanaya dəfələrlə onu yoxlamağa gəlmələrini, Truskoveskdə ilk dəfə yataqdan qalxıb pəncərədən təbiəti seyr edərkən yadına anası və Reyhanın düşdüyündən, Şöhrət ordenlərinin hər birinin verilməsində ağlagəlməz döyüşlər apardığı barədə Reyhanı ovundura-ovundura, heç nə olmayıbmış kimi danışdı.

Üç gün sonra Əmrulla rayon hərbi komissarlığına gedib oxumaq üçün Leninqrada göndərilməsini xahiş edir. Bakıdan razılıq alındıqdan sonra Əmrulla səssiz-səmirsiz, gecənin bir aləmində kənddən çıxır.

Aradan doqquz il keçmişdi. Mahudla Reyhanın doqquz yaşlı Əfzələddin adlı uşaqları vardı. Mahud Bakıda ali məktəblərin birində qiyabi təhsil alır və rayonda hərbi komissarlıqda kapitan rütbəsilə işləyirdi. Komissar rayon partiya komitəsindən gəlib kiçik yığıncaq keçirtdi. İşçilərə bəzi tapşırıqlar verdikdən sonra bildirdi ki, Mərkəzi Komitə rayonumuza yeni birinci katib göndərib, Leninqradda təhsil alıb və MK işçisi olub, tərcümeyi-halını oxuyanda dedilər ki, yerli kadrdır, Mahud, dyəsən, sizin kənddəndir. Əmrulla Qarayev yoldaşdır.

Mahud komissara "bəli" cavabını verib onun sözlərini təsdiqlədi.

Katib Qarayev işlərə çox ciddi başlamışdı. Müharibədən çıxmış ölkə ağır vəziyyətdə idi. Digər tərəfdən Mərkəzi Komitənin birinci katibi Mircəfər Bağırovun Azərbaycana kəskin, dönməz rəhbərliyi, İ.S.Stalininsə qəddarlıqda ölkədə yox, dünya miqyasında tayı-bərabəri yox idi. İnsanlar onun zülmü altında gecəli-gündüzlü işləsələr də, yenə qorxu, təlaş içərisində yaşayırdılar. Ölkədə zülm ərşə dirək idi. Müharibənin tüstüsü dolub tökülməyən buludlar kimi hələ də kabus olaraq ölkənin başı üzərində idi. Zaman lazımdı ki, dəymiş ziyanlar aradan qaldırılsın. Belə bir şəraitdə işləmək təbii ki, müşkül məsələydi. Quruculuq-bərpa işləri bütün ölkə üzrə vüsət almışdı.

1957-ci ildə Moskvadan Bakıya məktub daxil olur. İki Şöhrət ordenli Mahud Musayev göstərdiyi misilsiz şücaətə görə üçüncü dərəcəli şöhrət ordeni ilə də təltif olunubmuş, lakin obyektiv, subyektiv səbəblər ucbatından orden vaxtında sahibinə təqdim edilməyibdir. Sən demə, ordeni erməni generalı Abramyan gizlədib, sahibinə məlumat verməyib. Mahud Musayev hərbi komissarla rayon partiya komitəsinin bürosuna dəvət olundu. Ordeni Bakıdan bir polkovnik gətirmişdi.

Birinci katib ordeni Mahuda təqdim edəndə son sozu: "Siz xalqın da, dövlətin də, sevgilinizin də məhəbbətinə layiq əsgərsiniz", - dedi. Bakıdan – Müdafiə Nazirliyindən gələn qəhrəman əsgərə mayor rütbəsinin biletini təqdim edib, qısa, məzmunlu, onun keçdiyi həyat yolundan danışdı. Zaldakılar bu sadə, təvazökar, insanlara can yandırıb qayğı göstərən əsgərin belə qeyri-adi şücaətlər göstərməsinə məəttəl qalmışdılar.

Katib Qarayev neçə illər işlədiyi rayonda Mahudu birinci dəfəydi görürdü. Əsgərin zabitəsi, boy-buxunu, həddən ziyada yaraşığı nəinki katibi, hamını heyran qoymuşdu. Komissarlıqda Mahudun işi daxili nəzarət şöbəsinə rəhbərlik olduğu üçün az-az görünür, bəzən aylarla görünmürdü. Katib onu müharibə başlamamışdan əvvəl – bir həmkəndlisi olaraq, çəlimsiz, yaraşıqlı bir oğlan kimi görmüşdü. İndisə ürəyində: "Mahud, Reyhan sənə yaraşırmış, Allah o payı sənə göndəribmiş, Allah verən payısa bəndə heç vaxt ala bilməz", - deyib qəhrəman rəqibinə hüsn-rəğbət bəslədi.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 7-ci səhifədə)*

...Neçə illər keçmişdi. Mahud polkovnik rütbəsi ilə rayon hərbi komissarı vəzifəsində işləyirdi. Oğlu Əfzələddin Lomonosov adına Moskva Dövlət Universotetinin tarix fakültəsini bitirir. Əlaçı olduğuna görə universitetin aspirantı olmuş, üç ilin sonunda uğurla müdafiə edib, Bakıya qayıtmışdı. Atası məsləhət bilmişdi ki, Bakıda qalıb işləsin. Bir general müharibə iştirakçısı yoldaşı ilə məsləhətləşib Nazirlər Sovetinin elm şöbəsində işləyəsi olur.

Əfzələddinin rus dilini mükəmməl bilməsi, Moskva təhsili, alimliyi Nazirlər Sovetinin sədrinin diqqətindən yayınmır. Bu gənc, istedadlı və ucaboy oğlana özü də bilmədən qeyri-adi qüvvə ilə bağlanmışdı. Altı aydan sonra onu şöbə müdiri vəzifəsinə təsdiq edir.

Yeni ilin ilk ayında ölkənin ali məktəblərinin dövrə uyğun tələbatına əsasən ixtisaslar üzrə təminatı məsələsi müzakirə edilərkən Maarif Nazirinin çıxışından sonra sədr əlavələrini qeyd etdi. “Kimin təklifi var? ” – sualından sonra “Şöbə müdiri, bəlkə siz çıxış edəsiniz?”, - dedi.

Əfzələddin bölgü məsələsində ölkənin perspektivini nəzərə alıb gələcəkdə neftin istehsalı üçün kadrlar və kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması zəruriliyini vurğuladı. “Yoldaş sədr, yoldaş nazir, bu bölgüdə iki amilə ciddi diqqət yetirilməsini xahiş edirəm”, - deyib oturdu.

Sədr Əmrulla Qarayev: “Əfzələddin Musayev, biz nazirlə bu bölgünü neçə dəfə saf-çürük edib sonda bu qərara gəlmişik. Sizsə gənc kadr olaraq bizə iradınızı bildirisiniz”. Sədr ani olaraq Əfzələddini süzüb dilləndi: “Müzakirə üç gündən sonra davam edəcək”, - deyib iclası yekunlaşdırdı və pörtmüş halda arxa qapıdan çıxdı. Oturanlar bu işin nə ilə qurtaracağını, Əfzələddini hansı cəza gözlədiyini bir-birinə göz-qaş edə-edə otaqdan çıxdılar.



# AÇILMAYAN SİRR

Sədr kreslosunda oturub, katibəsinin gətirdiyi pürrəng çaya da məhəl qoymadı. Başını iki əli arasına alıb nə isə fikirləşirdi.

Möhkəm yorulmuşdu. Gənc şöbə müdirinin düşünülmüş təklifləri ona ləzzət etdisə də, gəncin özünəməxsusluğu, gözləri, məntiqi ona nəyisə, kimisə xatırladırdı. Sadəcə bu qədər təcrübəsi, fəhmi, siyasəti, ölkənin ikinci şəxsi olmasına baxmayaraq, fikirləri Əfzələddinin üzərində dayananda zehni dolaşırdı. Onunla bağlı bir sıra işlərdə lal-dinməz olub əlləri yanına düşmüşdü. Şöbə müdirini qısqanmağa başlamışdı. Səbəbini özü də bilmirdi. Oda düşmüşdü.

İndi də iclasda Əfzələddinin təklifləri naziri də, onu da mat etmişdi.

Üç gündən sonra müzakirənin davamında Mərkəzi Komitənin ideologiyaya baxan katibi Əlixanov iştirak edirdi. Ciddi, dövlət əhəmiyyətli müzakirədə şöbə müdirinin əhatəli, kadr potensialı üçün perspektivli, Avropa ölkələrinə istinadən ümumiləşdirilmiş çıxışı Mərkəzi Komitə katibini heyrətə gətirdi. O, elmi cümlələrlə fikirlərini əsaslandırılmış şəkildə ifadə edən şöbə müdirinə qibtə ilə baxırdı.

Əlixanov MK-nın birinci katibinə tələbə qəbulunun planlaşması haqqında şifahi arayış verərkən şöbə müdiri Əfzələddin Musayev adlı istedadlı bir gənc haqqında, onun ölkəyə lazımlı kadr olacağını da qısqanclıq etmədən danışmışdı.

Əmrulla Qarayev gənclik tanışı, Dövlət Təhlükəszilik Komitəsinin sədri, general-mayor Əzizova zəng edib hal-əhval tutduqdan sonra Əfzələddin Musayev haqqında səhih, həm də çox məxfi məlumat verilməsini xahiş etdi.

Səhəri iş gününün sonunda Qarayev Təhlükəsizlik Komitəsinin məxfi məktubunu aldı. Sədr təlaş içində, narahatlıqla məktubla tanış oldu. Eynəyi gözündən çıxarıb stolun üstünə tulladı. Kresloda o tərəf, bu tərəfə qurcalanıb geri-arxaya yayxındı. “Meşədə oturub odun axtarır” yoxsa, “Odu söndürüb külü ilə oynayırmış” atalar sözlərini ani olaraq yaddaşından keçirtdi.

Əfzələddin Mahud oğlu Musayev. Reyhanla evləndiyi ili yadına saldı. Hər şey baş nazirə hava-su kimi məlum oldu. Əfzələddin... Əfzələddin onun oğluymuş.

***Sentyabr, 2017.***